# «QƏBƏLƏNİN SƏSİ» poeziya buketi

***Redaksiyadan:***

*Qəbələ ədəbi ictimaiyyəti nümayəndələrinin şeir və hekayələrindən ibarət «Qəbələ-könül dünyamız» adlı almanax çapdan çıxmışdır. Kitaba şair, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvü Tacəddin Şahdağlı ön söz yazmışdır. Kitabda 57 nəfər yazarın şeirləri, mənsur şeirləri və kiçik həcmli nəsr əsərləri toplanmışdır. Kitabın ərsəyə gəlməsində AYB-nin və AJB-nin üzvü, bu vaxta qədər 13 kitabı nəşr edilmiş Emin Baratoğlunun böyük zəhməti olmuşdur. Qəzetimizin bu sayında almanaxda dərc olunmuş şeirlərdən bir neçəsini veririk. Gələcəkdə vaxtaşırı olaraq almanaxdan seçmələr dərc ediləcək.*




## Qədim Qəbələ şəhəri haqqında elegiya

Həsrəti bir dibsiz göylərə yazılmış,
Büsatı namərdlər əlilə pozulmuş,
Məzarı neçə min ürəkdə qazılmış,
Bir şəhər... köksünü dağıtmış qəlpələr—Qəbələ!

* * *

Cüt qala bürcüdür bu yerin baş daşı,
Bu viran şəhərin sel olub göz yaşı,
Dağlara həkk olub tarixin yaddaşı,
Bu dərddən göynəyir, sızlayır qəlb hələ,—Qəbələ!

* * *

Əsrlər bu yerdə hopub lal kərpicə,
Yer altda uyuyur yüz keçid, yüz küçə,
Zamanın şahmatı bitmədi heç-heçə,
Nə olar, dünyanı yenidən cəlb elə,—Qəbələ!

* * *

Tufanı dayanmış bir dəniz kimisən,
Dünənlə, bu günlə üzbəüz kimisən,
Bu dalğın baxışla kimsəsiz kimisən,
İstəsən bu sözə lap məni qəlpələ,—Qəbələ!

* * *

Köksündən nə qədər karvanlar yeridi,
Səs-küyün suların qoynunda əridi,
Bu yerdə qəzəblə söyləsən, yeridi:
Sükutun min ildir dərd olub bir elə—Qəbələ!

**Tacəddin ŞAHDAĞLI.**

## Mən elə bilirdim unutmuşam daha səni...



Özümə ölüm hökmü oxuyurmuş kimi əlvida da demişdim. Min dəfə demişdim əlvida. Xəyalını göz yaşlarımda boğaraq dəfn etmişdim içimin uzaq bir küncündə guya ki...

Bu gün bildim, özüm özümdən xəlvəti gizləyirəmmiş səni hələ də. Gizlin-gizlin, oğrun-oğrun.

«Sabah gələcəyəm...» deyib getmişdin.

Sabah oldu, gəlmədin, yenə oldu sabah, yenə gəlmədin. Payız ötdü, gəlmədin, yenə payız oldu, gəlmədin...

Gündə min ümid can verirdi qapımın ağzında, səni deyib için için haraylayan doğmaca balan kimi. Lakin yenə, yenə gəlmirdin, gəlmirdin bu haraya. Gəlmirdin dünyanın bənzərsiz qızcığazı!

Hərdən qapımı açırdım sənə oxşatdıqlarıma. Səni bir az da unudum deyə, uzaqlaşdırım deyə.

Aldadırammış bunlarla özümü. Heç kim, heç kim sən ola bilmirdi, nə qədər sənə oxşasalar da. İnanmıram, kimsə də mən ola bilsin sənin üçün bu yad, soyuq dünyada.

Səhərlər yenə ötüb keçirsən pancərəmin önündən. Bilirəm, üzün yoxdu dönməyə. Unut, bənzərsizim, unut olub keçənləri. Qayıt gəl, gəl bir sabah. O uzaqa qalmış sabahda gələcəyin kimi.

Silib ataram ömrümdən sənsiz keçən günləri. Onsuz da bu günləri mən yaşamadım ki...

**Füzuli YAVƏR.**

## Gəzirəm səni

***(Atam Barat Nəsir oğlunun unudulmaz xatirəsinə)***

Gəldim kəndimizə müəllim kimi,
Sevincdən, fərəhdən gözlərin doldu,
Öyündün mənimlə, sən qanad açdın,
Lakin arzuların həyatda qaldı.

* * *

O qəfil ölümün sarsıtdı məni,
Uşaq tək hönkürüb ağladım, ata.
Köçdün son mənzilə xəzan çağında,
Mənim ürəyimi dağladın, ata.

* * *

Müəllim çörəyi yeyə bilmədin,
Qırıldı qanadım yanıma düşdü.
Sən mənim tükənməz dövlətim idin,
Sənli xoş günlərim nə tez ötüşdü?..

* * *

Nə olar, bir ömür çox yaşayaydın,
İstərdim danlayıb döyəydin məni,
Düşüb çətinliyə imdad gəzəndə,
Duyaydım zəhmini, istiliyini.

* * *

Çıxara bilmirəm heç vaxt yadımdan,
Məzara köçdüyün o ağır günü.
Artıq qocalmışam, baba olmuşam,
Lakin uşaq kimi gəzirəm səni.

**Emin BARATOĞLU.**



## Şeir yazmaq istəyirəm

Elə istəyirəm bir şeir yazım,
Həyatın qədrini bilənlər üçün,
Elə istəyirəm bir şeir yazım,
Həsrətdən boynunu bükənlər üçün.

* * *

Elə istəyirəm bir şeir yazım,
Sevginin qədrini bilənlər üçün,
Elə istəyirəm bir şeir yazım,
Hər zaman can deyib gülənlər üçün.

**Elnarə ASLAN.**

## Yollar görünür

***Qarşında yollar görünür,***
***Haçalanıb dörd bir yana,***
***O yollardan biri səni***
***Almalıdır öz qoynuna.***

***Yolun biri xeyli uzun,***
***Digərisə geniş, düzdür.***
***Yol da vardır, eniş-yoxuş***
***Dolayları yöndəmsizdir.***

***Əgər yola başladınsa,***
***Artıq ondan qaçmaq olmaz.***
***Yolun səni istəyinə,***
***Ya çatdırar, ya çatdırmaz.***

***Təmkin ilə keçə bilsən,***
***O yöndəmsiz dolayları,***
***Ünvanına minbir əhsən,***
***Söyləyəcək onda hamı.***

**Əmirxan BURZUYEV.**



## Səninlə

*Hər qəmə, möhnətə dözərəm,*
*Dünyanı piyada gəzərəm,*
*Çölləri al-əlvan bəzərəm,*
*Səninlə.*

*Keçilməz cığırlar keçərəm,*
*Ən çətin zəhməti seçərəm,*
*İnan ki, Günəşi içərəm,*
*Səninlə.*

*Həyata nəğmələr qoşaram,*
*Dəniz tək susaram, coşaram,*
*Vallahi əbədi yaşaram,*
*Səninlə.*

**Mehrəli MEHRƏLİYEV.**



## Əjdər–Xəzər

**Xala oğludur**
**Əjdərlə Xəzər**
**Təqvimə hər gün**
**Salırlar nəzər.**

**Çox uzun gəlir**
**Onlara tətil**
**Axı məktəbə**
**Gedirlər bu il.**

**Əjdər şux əsgər**
**Paltarı geyir**
**Atamtək zabit**
**Olacam deyir.**

**Xəzər Xəzərdə**
**Üzmək istəyir**
**Kapitan olub**
**Gəzmək istəyir.**

**Fəxrəddin baba**
**Nərgiz nənəylə.**
**Baxıb fəxr edir**
**Arzu çin olub**
**Nəvələri cüt**
**Məktəbə gedir.**

***Əhməd Məmmədli.***

## Ana

Yer üzünün ilk nəğməsi,
Ana səsi.
Mahnıların ən kövrəyi,
Musiqinin ən bəstəsi,
Ana səsi,
Qılıncları qına qoyar,
Ana səsi.
Döyüşləri sona qoyar,
Ana səsi.
Hər insanın dar ayaqda
Umacağı təsəllisi varsa, o da
Ana səsi.
Yüz illərdir, min illərdir,
Alimlərin hey düşünüb,
Hələ yoza bilmədiyi fəlsəfəsi,
Ana səsi.

**İlham MURADOV.**



## Təbriz

***Gül-çiçək bəzəyən küçələriylə,***
***Dilindən süzülən nəğmələriylə,***
***Qəlbinin oduyla, hərarətiylə,***
***Sərdi yolumuza payəndaz,—dedim.***
***Üzü gülsə belə, qəlbi qübarlı,***
***Təbriz qarşıladı bizi vüqarlı,***
***Həmişə olubdur əhdə ilqarlı,***
***Ömründə daima olsun yaz,—dedim.***

***Mehriban baxışlı, gülər gözlüdür,***
***Ürəyi bilirəm necə sözlüdür,***
***Göz yaşın xəbərsiz məndən süzüldü,***
***Ayrılıq bitəcək mütləq döz,—dedi.***
***Bəxtindən eylədi mənə şikayət,***
***Dedi: yüz illərdir çəkirəm möhnət.***
***Görən çoxmu çəkər gördüyün zillət?***
***Mən tək zülm çəkən heç olmaz,—dedi.***

**Nargilə QAFAROVA.**